# KİMYANIN ƏSAS ANLAYIŞLARININ TƏDRİSİ

**M.N. Hüseynov., G.N. İsmayılova., A.Q. Sadəddinli**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Mövzunun izahına aşağıdakı qısa girişlə başlamalıdır. Təbiəti əsasən fizika, biologiya və kimya öyrənir. Fizika maddələrin quruluşunu, materiyanın müxtəlif hərəkət formalarını və onların qarşılıqlı çevrilmələrini öyrənir. Biologiya canlı materiyanın inkişaf qanunları ilə məşğul olur. Fizikada olduğu kimi,kimya da maddələrin quruluşunu öyrənir,lakin burada maddələrin xarakter xüsusiyyətlərini, bir maddənin digərinə çevrilməsinə və bununla da sonsuz miqdarda yeni maddə növlərinin alınmasına və onların tətbiq olunmasına daha çox diqqət verilir.

Maddələr və onların xassələri dərsi belə bir plan üzrə keçilə bilər:

**1.** Maddə və cisim;

**2.** Maddələrin xassələri; a) fiziki xassələri, b) kimyəvi xassələri

**3.** Maddələrin sıxlığını,ərimə və qaynama temperaturlarını təyin etməyi şagirdlərə öyrətmək (fizika kursundan bildiklərini yadlarına salmaq və təcrübə bunları təyin etməyi öyrətmək);

**4.** Maddələri tanımaq.

Bu dərsin də təchizatına çox ciddi fikir verilməlidir. Şüşə, alüuminium, mis və dəmirdən hazırlanmış cisimlər adi həyatda şagirdlərə yaxşı tanış olan müxtəlif bəsit və mürəkkəb maddələr; mis, dəmir, alüminium parçaları, şəkər, duz, spirt, benzin və sairə olmalıdır. Bu dərsdə ev tapşırığını bir neçə şagirdə oxutdurub fiziki və kimyəvi hadisələri onların nə dərəcədə düzgün başa düşdüklərini yoxlamaqla başlamaq münasibdir. Sonra əlaqə üçün müəllim sinifə belə müraciət edə bilər.

Şagirdlər artıq bilirlər ki, bizi əhatə edən aləmdə daim dəyişiklik baş verir. Bu dəyişikliyin iki cür olduğunu, birində maddənin (və cismin) xarici şəkli dəyişilsə və xassəsi dəyişilməyib eyni qaldığını və belə dəyişikliyə fiziki hadisə deyildiyini, ikinci növ dəyişilmədə isə maddənin bütün xassələri dəyişilib, yeni maddə əmələ gəldiyini və bu cür dəyişilməyə kimyəvi hadisə deyildiyini öyrəndik. Görəsən, maddələrin özünü biz necə öyrənirik? Maddə nədir?

Müxtəlif maddələrdən hazırlanmış cisimləri şagirdlərə göstərir və soruşur: bu cisim nədən hazırlanmışdır? Bəs bu cisim nədən hazırlanmışdır? Bunların biri dəmirdən, biri ağacdan, biri misdən hazırlanmışdır. Cisimləri təşkil edən bu şeylərə ümumi ad olaraq maddələr deyilir. Müəllim stol üstə qoyulmuş şeylərin hamısının müxtəlif maddələrdən təşkil olunduğunu söyləyir və onları bir-birindən nə ilə fərqləndirdiyini soruşur. Şagirdlər maddələrin bir-birindən öz xassələri ilə

fərqləndiklərini söyləyirlər. Sonra müəllim maddələrin xassələri dedikdə nəyin başa düşüldüyünü soruşur.

Maddələrdə baş verən dəyişikliyə hadisə deyilir. Hadisələr fiziki və kimyəvi olmaqla iki qrupa bölünür. Maddənin forma və halının dəyişməsi ilə gedən hadisələrə fiziki hadisələr deyilir.

Fiziki və kimyəvi hadisələr anlayışını öyrənəndə şagirdlər çətinliyə rast gəlirlər. Yaxşı olar ki, bu məsələyə dair aparılan məşğələ müsahibə şəklində başlansın və aşağıdakı suallar verilsin: fiziki və kimyəvi hadisələrdə maddələr dəyişməmiş qalırmı? Maddələrdə nə kimi dəyişikliklər baş verir? Maddələrin sizə məlum olan dəyişmələrindən misallar gətirin. Bu suallar verildikdən sonra şagirdlər müxtəlif hadisələrin adını çəkəcəklər. Müəllim onları yazı taxtasına yazmalıdır.

Maddələrdə baş verən dəyişiklərin hamısı eynidirmi? Onları müxtəlif siniflərə ayırmaq olmazmı? Hadisələrin bu təsnifatı üçün nəyi əsas götürmək olar? Aydındır ki, hadisədə ən başlıca məsələ maddənin dəyişilməsi xarakterikdir. Məsələn iri şəkər kristalını toz olaraq buxar, maye və bərk hallara keçməsi, cisimlərin istidən genişlənməsi və soyuqdan kiçilməsi və s. fiziki hadisələrdir.

Maddələrin tərkibini dəyişməsi ilə gedən reaksiyalara kimyəvi hadisələr deyilir. Kimyəvi hadisələr zamanı maddələr başlanğıc tərkibdən fərqlənən yeni tərkibli maddələrə çevrilirlər. Kimyəvi hadisələrə başqa sözlə kimyəvi reaksiyalar da deyilir. Kimyəvi hadisələrə misal olaraq şəkərin və digər yanan maddələrin yanmasını, suyun elektrolizində hidrogen və oksigenə parçalanmasını, metalların paslanmasını, fizioloji prosesləri və s. göstərmək olar.

Şagirdləri başa salmaq lazımdır ki, kimyəvi reaksiyaları kimyəvi tənliklərlə istifadə edirlər. Reaksiyaların kimyəvi işarələr və formullarla işarə olunmasına kimyəvi tənliklər deyilir. Kimyəvi reaksiya tənliklərini tərtib edərkən reaksiyaya girən maddələrin formullarını solda, reaksiya məhsullarının formullarını sağda yazırlar, sol və sağ tərəflər arasında isə bərabərlik işarəsi qoyulur. Daha sonra kütlə və enerjinin itməməsi qanununa əsaslanıb, arifmetik üsulla sağ və sol tərəflərə əmsallar qoymaqla tənliyi bərabərləşdirirlər. Məsələn, sink ilə xlorid turşusu arasında gedən reaksiyanı kimyəvi tənlik şəklində belə ifadə etmək olar:

$$Zn+HCl = ZnCl_2+H_2\uparrow$$

Kimyəvi tənlikdən göründüyü kimi, reaksiya tənliyinin sol və sağı bərabər deyildir. Sağda hidrogen və xlor atomlarının sayı soldakından iki dəfə çoxdur. Ona görə də bərabərlik işarəsinin sol tərəfində xlorid turşusu formulunun qabağına iki əmsalı yazılır və bununla da tənlik bərabərləşir.

$$Zn+2HCl = ZnCl_2+H_2\uparrow$$

Qarışıqlar və kimyəvi birləşmələr mövzusunun tədrisində əsas məqsəd şagirdlərdə qarışıqlar ilə saf maddələr arasındakı fərq haqqında aydın təsəvvür yaratmaqdan ibarətdir. Qeyd edilməlidir ki, qarışıqlar bir-biri ilə birləşməyən maddələrdən təşkil olunur. Maddələr təbiətdə əsasən qarışıqlar şəklində tapılır. Qarışıqda hər bir maddənin xassəsi ayrı-ayrılıqda saxlanılır. Qarışıqları istənilən nisbətdə hazırlamaq mümkündür. Qarışıqları, xassələrinə əsaslanıb müxaniki üsullarla bir-birindən ayırmaq olur. Qarışıqlar hazırlanarkən sistemdə istilik mübadiləsi getmir.

Qarışıqlardan fərqli olaraq saf maddələrin (birləşmələrin) stabil sabitləri olur, onlar müəyyən çəki nisbətində hazırlanır. Birləşməni aldıqda sistemdə istilik mübadiləsi gedir, yəni istilik ya udulur, yaxud buraxılır. Məsələn, dəmir ilə kükürd tozlarını adi şəraitdə qarışdıranda qarışıq alınır, çünki belə qarışığı maqnit və ya su ilə bir-birindən ayırmaq olur. Belə ki, maqnit dəmiri cəlb edib kükürddən ayırır,kükürd islanmadığı üçün suya batmır və dəmirdən ayrılaraq suyun səthində yığılır. Lakin dəmir və kükürd tozlarını müvafiq olaraq 7:4 çəki nisbətlərində götürüb qarışdıraraq, qarışığı azca qızdırdıqda reaksiya gedir və qızdırmanı dayandırdıqda belə kimyəvi prosesin getməsi davam edir.

Bu zaman reaksiya nəticəsində ayrılan istilik hesabına alınan kütlə közərir, prosesin sonunda nə dəmirə və nə də kükürdə oxşamayan yeni birləşmə – dəmir 2– sulfid əmələ gəlir:

$$\underset{7}{Fe} + \underset{4}{S} = \underset{11}{FeS}$$

Şagirdlərin diqqətinə çatdırılmalıdır ki, alınan dəmir 2-sulfid maqnit tərəfindən cəlb olunur, su onu tərkib hissələrinə ayırmır. Əmələ gələn maddəyə duru xlorid turşusu ilə təsir etdikdə lax yumurta iyi verən maddə – hidrogen – sulfid qazı alınır, halbuki dəmir ilə kükürd qarışığına xlorid turşusu təsir etdikdə rəngsiz, iysiz qaz olan hidrogen ayrılır. Burada müəllim şagirdlərə suallarla müraciət edir:

**1.** Dəmir tozunu kükürdlə qarışdırdıqda kimyəvi reaksiya gedirmi?

**2.** Bu maddələri qarışdırdıqdan sonra onlar öz xassələrini saxlayırlarmı?

**3.** Kükürdlə dəmir tozunu qarışdırdıqdan sonra onların əvvəlki xassələrini saxladığını biz hansl təcrübələrlə təsdiq etdik?

Bütün bu suallara şagirdlər öz müşahidələrinə əsasən cavab verirlər.

Beləliklə, qarışıqlar müxtəlif maddə molekullarından, birləşmələr isə eyni maddə molekullarından təşkil olunmuşdur.

Hələ eramızdan əvvəl qədim filosoflar atomlar haqqında müxtəlif fikirlər söyləmişlər. Lakin, o dövrdə elmin kilsə əlinə keçməsi ilə əlaqədar maddələrin quruluşu haqqında olan materialist baxışlar rədd edilib unudulmuşdur. Ona görə də XVII əsrin əvvəllərinə qədər elmdə maddələrin bölünməz olması təlimi hökm sürürdü.

Şagirdləri başa salmaq lazımdır ki, XVII əsrin birinci yarısında fransız filosofu Qasendi və XVIII əsrdə rus alimi M. V. Lomonosov filosofların atomistik təsəvvürlərini inkişaf etdirərək göstərmişlər ki, maddələr təbiəti etibarı ilə mürəkkəb quruluşludur. Qasendi göstərir ki, təbiətdə olan az miqdarda atomlar bir-biri ilə birləşib daha mürəkkəb hissəcikləri – molekullar əmələ gətirir. M. V. Lomonosov maddələrin çox kiçik hissəciklərdən təşkil olunması mülahizəsini söyləmiş və iki növ hissəciklərin mövcudluğunu ayırd etmişdir: atomlar və molekullar. Onun təbirincə "element" atomlar, "korpuskullar" isə molekullardır.

Mövzunun bu yerində Lomonosovun molekulyar – atomistik təsəvvürləri üzərində dayanılmalıdır. Lomonosov göstərdi ki:

**1.** Atomlar və molekullar arasıkəsilməz hərəkətdədirlər.

**2.** Eyni maddənin atom və molekulları eyni, müxtəlif maddələrin atom və molekulları müxtəlifdir.

**3.** Atom və molekullar kiçik ölçülüdürlər, onları ayrı-ayrılıqda gözlə görmək olmur.

**4.** Molekullar əmələ gəldikdə atomlar bir-biri ilə qanunauyğun surətdə birləşir və ayrılırlar.

**5.** Molekulların xassələri yalnız atomların kəmiyyət sayından deyil, molekulda atomların düzülüş ardıcıllığından da asılıdır.

**6.** Molekullar həm eyni adlı atomlardan (bəsit maddələrdə), həm də müxtəlif adlı atomlardan (mürəkkəb maddələrdə) təşkil oluna bilər.

M. V. Lomonosov göstərilən müddəalarla ilk dəfə olaraq kimya elminə əsaslı molekulyar – atomistik təsəvvürləri, element, bəsit maddə, mürəkkəb maddə anlayışlarını daxil etdirdi.

Şagirdlərə aydın olmalıdır ki, M. V. Lomonosovdan 67 il sonra ingilis alimi C. Dalton Lomonosovun atom təlimini təkrar etdi və onu inkişaf etdirdi. Belə ki, o dövrdə mövcud elementlərin atom kütlələrini təyin etmək üçün ilk təşəbbüsçü C. Dalton olmuşdur. Lakin,Dalton təlimində bəsit maddələr üçün molekul anlayışı inkar edildi. Onun təlimində bəsit maddələrin – atomlardan, mürəkkəb maddələrin isə "mürəkkəb" atomlardan təşkil olunduğu söylənilir. Dalton təlimi Lomonosov təliminə görə bir addım geridir. Dalton təlimində bəsit maddə molekullarının inkar edilməsi kimyanın sonrakı inkişafına mane olmuşdur.

XIX əsrin ortalarında (1860) Karlsryedə kimyaçıların beynəlxalq konqresində atom və molekulların reallığı artıq sübut olundu və onlara aşağıdakı təriflər verildi. Maddələrin xassələrini özündə saxlayan və müstəqil yaşaya bilən kiçik hissəciklərə molekullar deyilir. Bəsit və mürəkkəb hissəciklərə molekullar deyilir. Bəsit və mürəkkəb maddə molekullarının tərkibinə daxil olan ən kiçik kimyəvi element hissəciklərinə atomlar deyilir. Şagirdlər bunu da bilməlidirlər ki,

atomun xassəsi onun quruluşu ilə müəyyən olunur. Buna görə də hazırda atoma aşağıdakı tərif verilir.

Müsbət yüklü nüvədən, bir və ya bir neçə elektrondan təşkil olunmuş elektroneytral hissəciyə atom deyilir.

Elm və texnikanın tərəqqi etdiyi hazırki dövrdə alimlər maddələri təşkil edən atom və molekulların quruluşunu, ölçülərini, həqiqi kütlələrini, onlar arasındakı məsafələri, rabitə xarakterini və s. təyin etməyə və hətta onların şəkillərini çəkməyə nail olmuşlar. Ona görə də atom və molekulyar təlimdə müasir baxışlar ortaya çıxmışdır.

Hazırda göstərilir ki, yalnız molekulyar quruluşa malik olan maddələr molekullardan təşkil olunurlar. Bunlara misal qeyri – metalları (karbon və silisium müstəsna olmaqla), karbon – dioksidi, suyu, ion rabitəsi olmayan üzvi birləşmələri göstərmək olar. Molekulyar quruluşla malik olmayan maddələr isə molekullardan deyil, kimyəvi rabitədə olan hissəciklərdən – atom və ya ionlardan təşkil olunur. Almazı, silisiumu, təsirsiz qazları, metalları, ion quruluşlu oksidləri, metal sulfidlərini, əksəriyyət duzları bunlara misal göstərmək olar.

Şagirdləri başa salmaq lazımdır ki, molekulyar quruluşlu maddələrdə, molekullar arasında təsir göstərən kimyəvi rabitənin xarakteri zəif olduğundan davamsız olur. Ona görə də bu cür maddələr aşağı ərimə və qaynama temperaturuna malik olurlar. Atom və ion quruluşlu maddələrdə isə hissəciklər arasında kimyəvi rabitə möhkəm olur. Bu cür maddələr yüksək ərimə və qaynama temperaturuna malik olurlar.

Atom molekul təlimi maddələrin tərkibi, daxili quruluşu, xassələri, bir maddənin digərinə çevrilməsi və s. haqqında düzgün təsəvvürlər verir.

## İstifadə edilmiş ədəbiyyat:

1. R.Y. Əliyev. Ə.T.Əzizov. Kimyanın tədrisi metodikası. I hissə, Bakı-2005
2. Ə. Əbdürrəhimov. II hissə, Bakı -1967
3. Akif Əliyev. “Kimyəvi reaksiya anlayışı, kimyəvi tənlik, Maddə kütləsinin saxlanması qanunu” dərs mövzularının tədrisi. Kimya məktəbdə, məcmuə, 1(5), s 110-118, Bakı-2004
4. Y.V. Xodakov, D. A. Epşyteyn, Y.A. Qloriozov və b. 7-8-ci siniflərdə kimyanın tədrisi. Müəllimlər üçün metodik vəsait. “Maarif” nəşriyatı. Bakı-1973
5. Mütəllim Abbasov, Akif Əliyev. Kimya, 7c- sinif, Müəllim üçün metodik vəsait. Bakı 2014.

**М.Н.Гусейнов, Г.Н. Исмаилова, А.Г. Садеддинли**

**Обучение основных понятий химии**

**АННОТАЦИЯ**

В статье говорится о повышении качества обучение, формирование понятий с точки зрения когнитивных процессов. Что касается концепции, имеется ввиду обобщённый тии знания обладённый в ходе восприятия курса химии и форма мыщления. Концептия глубокого восприятия материалов, которые будут изучены и изменений происходящих в них, помогает формированию кругозору диалектного материализма у студентов и всемеет уверенность.

Именно поэтому в воспитательной и процветающей системе образования формирование химический понятий занимает основное место в методики преподавания химии.

**M.N. Huseynov, G.N. İsmailova, A.G. Sadeddinli**

**Teaching of main concepts of chemistry**

**SUMMARY**

In this article is spoken about how to upgrade the efficiency of teaching processes in formation of concepts according to the cognitive theory. When we say conception, we mean general type of knowledge and thinking form. Conception generalizes concrete material, takes primary perceived knowledge and obtained imagines to higher stage, becomes main way of understanding of matters will be learned and future changes of them, helps formation of dialectic materialist worldview, strong conviction and believe.

That is why in educational and developing training system formation of chemical conceptions in students takes one of the central places in the methods of teaching of chemistry.

**Açar sözlər:** maddə, cisim, fiziki və kimyəvi hadisələr, kimyəvi reaksiya, qarışıqlar və kimyəvi birləşmələr

**Ключевые слова:** вещество, тело, физические и химические явления, химическая реакция, смеси и химические соединения

**Key words:** matter, body, physical and chemical processes, chemical reaction, mixtures and chemical combinations